# Qarabağ mətbəxinin inciləri

**Azərbaycan özünün zəngin mətbəx mədəniyyəti ilə dünyada tanınan ölkələrdəndir. Bu mədəniyyətin hərtərəfli təbliği və təşviqi məqsədilə ölkəmizdə müxtəlif tədbirlər həyata keçirilir. "PuBella restopub" restoranında Azərbaycan Milli Kulinariya Assosiasiyası (AMKA) tərəfindən 2022-ci il "Şuşa ili"nin yekunları və fəal üzvlərin mükafatlandırılması mərasimi də həmin məqsədə xidmət edib. Mərasimdən öncə 44 günlük Vətən müharibəsində şəhid olmuş 6 aşpazın xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**



AMKA-nın prezidenti Tahir Əmiraslanov "Şuşa ili" çərçivəsində görülən işlərdən söz açdı. O, ötən il AMKA üzvlərinin yerli və beynəlxalq tədbirlərdə qazandığı uğurlardan danışdı. 2023-cü ildə qarşıda duran hədəflər barədə fikirlərini bölüşdü.

Bildirildi ki, AMKA tərəfindən "Şuşa ili" çərçivəsində hazırlanmış "Qarabağ mətbəxinin inciləri" kitabı Azərbaycan Respublikasının Qeyri-Hökumət təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrant layihəsinin qalibi olub və bu layihə çərçivəsində çap edilib. Kitabın Şuşada, Gəncədə (Azərbaycan Texnologiya Universitetində), Bakıda (5 saylı peşə məktəbində, "Xanədan" (Etnorestoranında), Türkiyədə (Mardin, İstanbul və Çanaqqala şəhərlərində) təqdimatı keçirilib.

Qeyd edildi ki, ötən il Tahir Əmiraslanovun "Dolma məsələsi: bütün şübhələrə son" monoqrafiyası türk və özbək dillərində çap olunub. Natiq qeyd etdi ki, Bakıda "Yaban Bulvar" restoranında AMKA idarə heyətinin üzvü Firdovsi İsmayılovun təşəbbüsü ilə Lənkəran mətbəxi aylığı təsis olunub, Lənkəran peşə məktəbinin şagirdlərinə yerli mətbəx üzrə ustad dərsləri keçilib.

Bundan başqa, keçən il AMKA Livanda keçirilən Dünya Halal Çempionatının kubokunu qazanıb və Lənkəran şəhərinə ərməğan edib. Həmçinin Assosiasiyanın 8 üzvü Dünya Aşpazlar Olimpiadasında iştirak edib. Yarışlarda komanda üzvləri, ümumilikdə, 15 medal (8 qızıl, 4 gümüş, 3 bürünc) qazanıblar. BƏƏ-nin Əbu-Dabi şəhərində keçirilən "Worldchefs Congress and Expo" adlı konqresdə iştirak ediblər.

Sonda AMKA tərəfindən Azərbaycan Milli Mətbəx Mədəniyyətinə verdiyi dəstəyə görə bloger Nigar Əmirbəyova, "Qarabağ mətbəxinin inciləri" kitabının dizayneri Elnarə Heybətova, aşpaz Simuzər Süleymanova fəxri diplomlarla təltif ediliblər.

Bundan başqa, "Şuşa ili" qrant layihəsi çərçivəsində tədbirlərdə fəallıqları ilə seçilmiş bir sıra ustad aşpaz və konditerlər QHT-lərə Dövlət Dəstəyi Agentliyinin fəxri diplomlarına layiq görülüblər.

Sonda AMKA-nın idarə heyətinin üzvü Oruc Əliyev, usta aşpaz, idarə heyətinin üzvü Firdovsi İsmayılov çıxış edərək, təmsil olunduqları hər bir layihədə ölkəmizin adını təmsil etməkdən şərəf duyduqlarını ifadə ediblər.

**Elçin ABBASOV, "Xalq qəzeti"**

Xalq qəzeti.- 2023.- 13 yanvar.- S.7.